Aytən Akif qızı Şükürova

UOT: 338.658; JEL: L52.

Aqrar məhsulların reallaşdırılmasının iqtisadi şəraitinin təkmilləşdirilməsi

Xülasə

Məqalədə kənd təsərrüfatı məhsullarının reallaşdırılması formaları və sisteminin iqtisadi şəraitinin təkmilləşdirilməsi məsələlərinə baxılmış, reallaşdırmanın daha geniş yayılmış kanalları təhlil edilmiş, bu sistemin təkmilləşdirilməsi istiqamətləri üzrə müvafiq təkliflər verilmişdir.

Açar sözlər: *aqrar məhsul; reallaşdırma; satış; aqrobiznes; kooperativ; təkmilləşdirmə.*

Giriş

Kənd təsərrüfatı istehsalının dinamik inkişafının mühüm istiqamətlərindən biri məhsulların reallaşdırılması sisteminin və onun iqtisadi şəraitinin təkmilləşdirilməsindən ibarətdir. Rəqabət şəraitində məhsulların reallaşdırılma forması və sisteminin səmərəli təşkili mexanizminin kifayət qədər formalaşmaması ölkədə bir çox aqrar məhsul istehsalçılarının zərərlə işləməsinə səbəb olur. İqtisadi islahatların nəticəsi, mövcud bazar münasibətlərinin təkmilləşdirilməsi, kənd təsərrüfatının mövsümü xarakter daşıması, əhalinin əlverişli qiymətlərlə keyfiyyətli ərzaq təminatının zəruriliyi və məhsulların səmərəli reallaşdırılması üçün iqtisadi şəraitin təkmilləşdirilməsi satış sferasında bir sıra problemlərin həllini tələb edir. Ekspertlərin fikrincə, bu problemlərin həllində kənd təsərrüfatının dayanıqlı inkişafını təmin edən məhsulların reallaşdırılması sisteminin təkmilləşdirilməsi və onun səmərəliliyinin yüksəldilməsi üzrə tədbirlər kompleksinin hazırlanması və tətbiqi mühüm istiqamət ola bilər.

Aqrar məhsulların reallaşdırılması sisteminə baxışlar

Dünya təcrübəsində aqrar məhsulların reallaşdırılması sisteminin əsasən satış kooperativləri, emal və ticarət müəssisələri ilə kontrakt əsasında, topdan bazar və hərraclarda, birja və pərakəndə ticarət vasitəsilə rerallaşdırılmasının təşkilati formaları tətbiq edilir. Belarusiyalı alim, prof. N.Kireenkonun araşdırmalarına görə, xarici ölkələrdə aqrar məhsulların reallaşdırılmasının ümumi sistemi mövcuddur [10, s.18]. Bu, ölkənin satış infrastrukturuna tətbiq baxımından aşağıdakı kimi ola bilər. Avropa İttifaqı ölkələrində, ABŞ və Yaponiyada məhsulların reallaşdırılmasında müasir sistem daha geniş tətbiq edilir. İqtisadçı-alim prof. E.Quliyev elmi araşdırmalarında kənd təsərrüfatı məhsullarının reallaşdırılması sisteminin təkmilləşdirilməsinin zəruriliyini əsaslandıraraq onların "tədarükü, saxlanması, daşınması, son istehlakçılara çatdırılması, satış məntəqələrinin yaradılması..." prosesinin mühüm əhəmiyyətini qeyd etmişdir [9, s.110]. Beləliklə, qeyd edilənləri ümumiləşdirərək belə nəticəyə gəlmək olar ki, respublikamızda aqrar məhsulların reallaşdırılması sisteminin iqtisadi şəraitinin təkmilləşdirilməsindən məqsəd aqrar bazarda onların səmərəli reallaşdırılması və qiymət siyasətinin formalaşdırılması üçün şərait yaratmaq, xammal bazarını inkişaf etdirmək, kənd təsərrüfatı məhsul istehsalçılarına dövlət dəstəyi göstərmək və onların reallaşdırılmasından əldə edilən mənfəətliliyi yüksəltməkdən ibarətdir. Sahə mütəxəssislərinin elmi yanaşmlarını zəngin informasiya mənbəyi əsasında araşdıraraq belə nəticə çıxartmaq olar ki, ölkəmizdə iqtisadi subyekt səviyyəsində aqrar məhsulların reallaşdırılma formalarının təkmilləşdirilməsi probleminin həlli təklif edilən sxem üzrə aqrar müəssisələrdə satışın səmərəli sisteminin bilavasitə yaradılması ilə xarakterizə

©*Aytən Akif qızı Şükürova Azərbaycan Kooperasiya Universiteti, baş müəllim, dissertant. E-mail: shukurovaayten@mail.ru*
©*AMEA İqtisadiyyat İnstitutu*
© *www.economics.com.az*

olunur (cədvəl1). Təsərrüfatlarda məhsulların reallaşdırılması sisteminin təkmilləşdirilməsinin qeyd edilən istiqamətləri müvafiq mərhələlər üzrə tədbirlərin xarakteristikasını, gözlənilən məsrəflərin və əldə edilə bilən iqtisadi səmərənin həcmini nəzərdə tutur. Bununla yanaşı, aqrobiznes sferasında əmtəəlik məhsulun reallaşdırılması sisteminin mərhələlərlə təkmillləşdirilməsi həm də marketinq xidmətinin formalaşdırılması və praktiki tətbiqi əsasında kənd təsərrüfatı müəssisələrinin səmərəli fəaliyyətini təmin edir.

Cədvəl 1.

Aqrar müəssisələrdə məhsulların reallaşdırılması sisteminin təkmilləşdirilməsinin əsas istiqamətləri

Mərhələ	Tədbirlərin xarakteristikası	Nəzərdə tutulan məsrəflər və çətinliklər	Gözlənilən səmərə
1.	Müqavilələrin hüquqi ekspertizasının keçirilməsinin təşkili	İxtisaslı hüquqşünasın xidmət ödənişi xərcləri və ya hüquq xidməti mütəxəssisinin maaşı	Gələcək kreditor və debitor borcların əsassız artımının qarşısının alınması
2.	Bazarın qiymət konyunkturası və müəssisənin rəqabət mühitinin təhlilinin aparılması. Satış fəaliyyətində kooperasiya imkanlarının aşkar edilməsi	Marketinq xidməti üçün yüksək ixtisaslı mütəxəssislərin cəlb edilməsi və marketinq planının hazırlanmasına informasiya – məsləhət xidməti alınmasına məsrəflər	İstehsaldan və əmtəəlik məhsulun satışından əldə edilən mənfəəti 10-15 faiz artırmaq. İstehsalın rentabellik səviyyəsini 30-40-dək çatdırmaq
3.	Müəssisəyə marketinq xidmətinin təşkili	Mütəxəssislərin təlimi və marketinq xidmətinin fəaliyyətinə sərf edilən məsrəflər	İstehsal strukturunun bazarın tələbinə uyğunluğu, məhsula və müəssisənin yüksək rəqabətqabiliyyətinə nail olmaq. Satışın daha səmərəli kanalı üzrə yüksək satış qiyməti ilə əmtəə dövriyyəsini artırmaq

Qeyd edilənləri nəzərə alaraq, məhsulun reallaşdırılması sistemi və formasının təkmilləşdirilməsi məsələsində sistemli yanaşmadan istifadə etmək olar. Aqrar məhsulların reallaşdırılması sisteminin təkmilləşdirilməsi prosesinin formalaşmasının struktur – funksional sxemi aşağıdakı kimi xarakterizə olunur. Aşağıdakı şəkildən göründüyü kimi, aqrar məhsuların reallaşdirilması forması və sisteminin təkmilləşdirilməsinə yanaşmanın mahiyyəti, reallaşdırılan məhsulun keyfiyyətinin tələb olunan səviyyədə təminatı və dövlət nəzarəti əsasında onun yüksəldilməsindən ibarətdir. Burada aqrobiznes məhsullarının reallaşdırılması texnologiyası, iqtisadi hüquqi mühit və idarəıetmə proseslərinin təkmilləşdirilməsi elementləri – vəzifələri mühüm əhəmiyyət kəsb edir. Beləliklə, fikrimizcə, aqrar məhsulların reallaşdırılması sisteminin təkmilləşdirilməsinin bütün prosesi hər şeydən əvvəl həmin məhsulların keyfiyyətinin yüksəldilməsinə nail olmağa yönəlmişdir.

Bununla yanaşı, aqrar məhsulların reallaşdırılmasının təşkilinin təkmilləşdirilməsinin əsas istiqamətləri daha böyük maraq doğurur. Araşdırmalar göstərir ki, kənd təsərrüfatı məhsullarının reallaşdırılmasının təşkilinin istiqamətləri bazar (satış) infrastrukturunun inkişafını, marketinq xidmətinin yaradılmasını, qiymət sistemi və aqrobiznes məhsullarının reallaşdırılması forma və üsullarının təkmilləşdirilməsini nəzərdə tutur. Bu da öz növbəsində aqrar məhsulların reallaşdırılmasının və onun iqtisadi şəraitinin təkmilləşdirilməsinin kənd təsərrüfatı istehsalının inkişafının əsas şərtlərindən biri olduğunu təsdiq edir. Elmi araşdırmalarında hələ 2000-ci illərdə qeyd edirdi ki, "Əsaslı iqtisadi islahatlar kənd təsərrüfatı müəssisələrinin məhsullarının satınalınmasını dövlət inhisarından azad etmişdir. Eyni

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

zamanda aqrar istehsalçıların konkret tədarükçülərə təhkimçiliyi əsasən aradan qaldırılmışdır. Bu, aqrar sferada bazarın formalaşmasına və bir çox kənd təsərrüfatı məhsullarının istehsal həcminin tələb və təklif mexanizmi əsasında tənzimlənməsinə yol açmışdır. Lakin bununla bərabər, kənd təsərrüfatı məhsulları bazarında əlverişli rəqabət mühitinin yaradılması problemi də yaranmışdır [7, s.48].

Şəkil 1.

Aqrar məhsulların reallaşdırılması formasının təkmilləşdirilməsi prosesinin strukturu



İqtisadi elmi mənbələrdən məlum olduğu kimi, məhsulun reallaşdırılmasının iqtisadi şəraitinin təkmilləşdirilməsi və səmərəliliyi kənd təsərrüfatının ictimai əmək bölgüsünə inteqrasiya səviyyəsi ilə xarakterizə olunur. Bütün bunlar onu deməyə əsas verir ki, aqrar sferanın inkişafında sürətli islahatlar və struktur dəyişikliklər şəraitində aqrobiznes məhsullarının reallaşdırılması sisteminin təkmilləşdirilməsi prosesində yaranan əsas problemlər bunlar ola bilər: aqrar məhsulların istehsal həcminin daim artması; istehsalın mövsümü xarakter daşıması; kiçik və orta kənd təsərrüfatı müəssisələri və fermer təsərrüfalarının öz istehsal məhsulunun reallaşdırılmasının məhdudluğu.

Aqrar sektor məhsullarının reallaşdırılması

Müasir şəraitdə ölkəmizdə aqrar məhsulların reallaşdırılmasının və iqtisadi şəraitinin təkmilləşdirilməsinin başlıca istiqamətindən biri, istehsalçılara məhsulu müvəqqəti saxlamağa imkan verən loqistik mərkəzlərin təşkili ola bilər. Belə mərkəzlərdə tam və ya ilkin emal sexlərinin yaradılması mümkündür. Bu da öz növbəsində müəyyən növ tezxarabolan məhsulların saxlanma müddətini artırmağa və onların daşınmasını xeyli sadələşdirməyə imkan verər. Aqrar məhsulların reallaşdırılmasının iqtisadi şəraitinin təkmilləşdirməsində loqistik xidmət mühüm rol oynayır. Belə ki, Azərbaycanın ərzaq balanslarına əsasən, 2018-ci ildə bitkiçilik məhsulları üzrə bütün resursların 474,6 min tonu və ya 4,4%-i, o cümlədən buğdanın 232,6 min tonu, heyvandarlıq məhsullarının bütün resurslarının 13,7 min tonu və ya 0,5%-i, o cümlədən ət və ət məhsullarının 2,6 min tonu, süd və süd məhsullarının 10,3 min tonu loqistik, nəqliyyat və digər xidmətlərin nisbətən zəif olması səbəbindən itirilmişdir [4, s.11]. Ölkədə topdan ərzaq bazarlarının fəaliyyətinin təkmilləşdirilməsi uyğun loqistik sistemin yaradılması ilə şərtlənir və bazarların inkişafının innovasiyalı strategiyasının həyata keçirilməsinə və əlavə rəqabət üstünlüyünün yaradılmasına yönəlməlidir.

Bir çox Qərbi Avropa ölkələrində aqrar məhsulların reallaşdırılması sisteminin səmərliliyinin yüksəldilməsi məqsədilə satış kooperativlərinin rolu genişləndirilir və bu fermerlərin xeyli hissəsini birləşdirir. Alamniyada süd satışında kooperativlərin xüsusi çəkisi təxminən 80%, taxılda – 50%-dən yuxarı, tərəvəz 40%-ə yaxın, donuz və mal əti 25% və quş əti təxminən 17%-dən çox təşkil edir. Bununla yanaşı, xeyli kooperativdə aqrar məhsulların emalı da təşkil olunmuşdur [13,s.29]. Məlum olduğu kimi, ölkəmizdə kənd təsərrüfatı məhsullarının reallaşdırılması kanallarının əsas mənbəyi – dövlət ehtiyacları üçün dövlət

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

müəssisə və təşkilatlarına müqavilə əsasında mərkəzləşdirilmiş satış, emal müəssisələrinə, əhaliyə və digər istehlakçılara topdan və pərakəndə satışdan ibarətdir. "ATT" ASC-nin məlumatına əsasən, 2019-cu ildə yerli kənd təsərrüfatı məhsul istehsalçılarından ildə dövlət ehtiyacları üçün büdcə vəsaiti hesabına mərkəzləşdirilmiş qaydada 4736 ton ət, 11336 ton sud, 3257 ton meyvə və giləmeyvə və 14565 ton tərəvəz satın alınmışdır [5,s.2]. Aqrar məhsulların və ərzağın reallaşdırılması sisteminin təkmilləşdirilməsində onların pərakəndə və topdan ticarət vasitəsilə satışının həcmi xüsusi əhəmiyyət kəsb edir. Belə ki, 2018-ci ildə ərzaq məhsullarının pərakəndə ticarət vasitəsilə əhaliyə satışının həcmi 18,6 mlrd. man. olmuş və ya 2015-ci ilə nisbətən 44,2% artmışdır. Ölkədə əhaliyə satılan bütün məhsulların ümumi həcmində qeyd edilən kənd təsərrüfatı və ərzaq məhsullarının payı 50,3% olmuşdur. Bununla yanaşı, 2018-ci ildə pərakəndə ticarət şəbəkəsi kanalı ilə istehlakçılara reallaşdırılan kənd təsərrüfatı məhsulları və ərzağın ümumi həcmində meyvələrin xüsusi çəkisi 12,4%, tərəvəzin payı 10,8%, ət 11,1%, süd və süd məhsulları 3,4% təşkil etmişdir. Aşağıdakı cədvəldən göründüyü kimi, müqayisə edilən dövrdə həmin məhsulların xüsusi çəkisi uyğun olaraq meyvə üzrə 0,2%, tərəvəz 0,5%, ət 0,3% artmışdır, lakin müqayisə edilən dövrdə əhaliyə satılan kartof, balıq, çörək-bulka məhsulları, qənd və digər ərzağın xüsusi çəkisi bir qədər azalmışdır.

Cədvəl 2.

Kənd təsərrüfatı məhsulları və ərzağın pərakəndə ticarət kanalı ilə satışı (%)

	2010	2015	2016	2017	2018
Məhsullar (mln.manat)	8577,1	12871,2	15077,4	17883,4	18638,4
Yekuna nisbətən%	100,0	100,0	100,0	100,0	100,0
Meyvələr	15,30	12,21	11,60	11,99	12,37
Kartof	1,90	1,03	0,79	0,83	0,73
Tərəvəz	19,26	10,22	9,37	10,29	10,76
Ət	9,50	10,77	9,94	11,28	11,08
Balıq	1,90	2,56	2,48	2,35	2,37
Çörək-bulka məhsulları	5,74	4,79	4,57	4,39	4,36
Süd və süd məhsulları	2,41	3,43	3,38	3,34	3,43
Kərə yağı	3,86	3,85	3,68	3,59	3,84
Yumurta	1,74	1,68	1,94	1,55	1,69
Bitki yağı	1,20	1,46	1,58	1,48	1,55
Qənd	2,67	2,50	2,70	2,58	2,17
Un	1,98	2,23	2,35	2,17	2,11
Yarma və paxlalar	1,01	1,07	1,16	1,08	1,00
Makaron	0,91	1,14	1,23	1,10	1,07
Digər k/t məhsulları	30,62	41,06	41,06	41,98	41,47

Mənbə: [2, s.335].

Bununla yanaşı qeyd etmək lazımdır ki, ölkəmizdə aqrar məhsulların reallaşdırılması sistemində topdan ticarət kanalının xüsusi yeri vardır. Çünki, iri məhsul istehsalçıları, emal sənaye müəssisələri və digər istehlakçılar adətən məhsulun reallaçdırılması kanalının bu inkanlarından geniş istifadə edirlər. Bunu aşağıdakı cədvəl göstəriciləri daha aydın xarakterizə edir. Aşağıdakı cədvəldən göründüyü kimi, 2018-ci ildə topdan ticarət satış kanalı ilə reallaşdırılan bütün ərzaq məhsullarının (13.552,8 mln.man) 271,4 mln.manatlığı və ya 2% taxıl, 1306,7 mln. manatlıq və ya 9,6%%-i diri heyvanlar, 2910,9 mln.man və ya 21,5%-i təzə meyvə və tərəvəz, 313,6 mln.manatlıq və ya 2,3%-i ət məhsulları, 366 mln.manat və ya 2,7%-i süd məhsulları və 145,6 mln.manatlığı və ya 1,07 faizi yumurta məhsullarının payına düşmüşdür. Burada sənaye emalı və ixracı nəzərə alsaq təzə meyvə və tərəvəzin satışının xüsusi çəkisi daha yüksəkdir. Məlumatların təhlilinə əsasən, respublikamızda istehlak məhsulları və əhaliyə göstərilən ödənişli xidmətlərin qiymət indeksinin tərkibində ərzaq

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

məhsullarının qiymət indeksi 2018-ci ildə əvvəlki ilə nisbətən 101,7%, o cümlədən ət məhsulları 99,6%, süd və yumurta 104%, balıq 101,9%, meyvə 104,1%, tərəvəz isə 104,3% təşkil edilmişdir. 2018-ci ildə ərzaq məhsullarının qiymət indeksi 2015-ci illə müqayisədə 35,8% artmışdır.

Cədvəl 3.

Kənd təsərrüfatı məhsulları və ərzağın əsas növlərinin topdanticarət kanalı vasitəsilə reallaşdırılması (mln.man.)

	2015		2016		2017		2018	
	mln. man	xüsui çəkisi %	mln. man	xüsui çəkisi %	mln. man	xüsui çəkisi %	mln. man	xüsusi çəkisi %
Ərzaq məhsulları Cəmi:	11328,9	100	12009,5	100	13074,9	100	13552,8	100
O cümlədən: Taxıl	246,0	2,21	250,5	2,18	262,1	2,03	271,4	2,0
Diri heyvanlar	904,2	7,98	1018,1	8,48	1124,4	8,60	1306,7	9,64
Təzə meyvə və tərəvəz	2616,0	23,10	2657,2	22,13	2845,8	21,77	2910,9	21,48
Ət məhsulları	336,7	2,97	348,6	2,90	356,5	2,73	313,6	2,31
Süd məhsulları	326,0	2,88	335,0	2,79	346,0	2,15	366,0	2,70
Yumurta	128,7	1,14	141,9	1,18	151,1	1,16	145,6	1,07

Mənbə: [3, s. 2.31].

Ölkədə 2018-ci ildə kənd təsərrüfatı məhsullarının istehsalçı qiymət indeksi 2015-ci ilə nisbətən bütün aqrobiznes məhsulları üzrə 11,2% yüksəlmiş olsa da, bitkiçilik məhsulları üzrə bu göstərici cəmi 93,6% təşkil etmiş, heyvandarlıq məhsulları üzrə isə 22,8% artmışdır. 2018-ci ildə əvvəlki il ilə müqayisədə bitkiçilik məhsulları, o cümlədən tərəvəz və bostan məhsulları, eyni zamanda yem bitkiləri istisna olmaqla digər bütün aqrobiznes məhsullarının istehsalçı qiymətləri indeksi xeyli yüksəlmişdir.

Cədvəl 4.

Ərzaq məhsullarının qiymət indeksinin xüsusi çəkisi (%)

	İstehlak məhsulları və ödənişli xidmətlərin qiymət indeksi	onlardan	o cümlədən				
		ərzaq məhsularının qiymət indeksi	ət	süd və yumurta	balıq	meyvə	tərəvəz
2015	104,0	106,1	101,9	105,6	101,9	106,7	95,1
2016	112,4	114,7	107,1	111,4	113,6	112,9	106,8
2017	112,9	116,4	124,9	110,6	110,7	118,6	121,1
2018	102,3	101,7	99,6	104,0	101,9	104,1	104,3

Mənbə: [3, s.1.4].

Təhlil nəticəsində müəyyən edilmişdir ki, 2018-ci ildə 2015-ci il ilə müqayisədə kənd təsərrüfatı məhsullarının istehsalçı qiymət indeksi bütünlükdə 0,8%, o cümlədən birillik bitkilər üzrə 0,6%, onlardan dənli birkilər üzrə 0,7%, tərəvəz-bostan məhsulları üzrə 0,7%, lifli bitkilər üzrə 5,4% və heyvandarlıq məhsulları üzrə 3,6% artmışdır. Lakin müqayisə edilən dövrdə kartofun (1,1%), şəkər çuğundurunun (18%) və çoxillik bitkilərin (12,6%) istehsalçı qiymətində müvafiq azalmalar baş vermişdir. Bununla yanaşı, qeyd etmək lazımdır ki, aqrar məhsulların əsas növlərinin müxtəlif satış kanalları vasitəsilə reallaşdırılmasının iqtisadi şəraitinə və onun səmərəliliyinin yüksəldilməsinə kənd təsərrüfatı müəssisələri və fərdi sahibkarlıq təsərrüflarında məhsulun orta satış qiyməti də çox böyük təsir göstərir. Müqayisə edilən dövrdə kənd təsərrüfatı müəssisələri və fərdi sahibkarlıq təsərrüfatlarında

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

məhsul istehsalçılarının ayrı-ayrı məhsul növləri üzrə istehsalçı qiymət indeksi ilə, bir sentner məhsulun satış qiymətləri arasında böyük fərqlər yaranmışdır. Ümumiyyətlə, apardığımız təhlil və araşdırmalar təsdiq edir ki, aqrobiznes məhsullarının reallaşdırılmasının iqtisadi şəraitinin təkmilləşdirilməsi optimal satış sistemi kanallarının seçilməsi ilə sıx əlaqəlidir.

Nəticə

Aqrar məhsulların reallaşdırılmasının iqtisadi şəraitinin təkmilləşdirilməsinin zəruriliyi və istiqamətlərini zəngin informasiya mənbələri, xarici və ölkə alimlərinin elmi, nəzəri və praktiki araşdırılmaları əsasında tədqiq edərək belə nəticəyə gəlmişik ki, aqrar bazarda məhsulların reallaşdırılması sisteminin səmərəli təşkili məhsul istehsalçıları ilə dövlətin birgə səylərini nəzərdə tutur. Məhsulların reallaşdırılması prosesinin iqtisadi şəraitini təkmilləşdirmək məqsədilə bazar infrastrukturunun inkişafı, kənd təsərrüfatı məhsullarının reallaşdlırılması forması və üsulları, onların istehsalçıdan istehlakçıya çatdırılmasının yeni, daha təkmilləşdirilmiş bölgü kanalları müəyyən edilməli, iri topdan bölüşdürücü loqistik mərkəzlər, satış kooperativləri, istehlak kooperasiyasının fəaliyyəti, digər satış formaları, müasir anbar və tara təsərrüfatı, nəqliyyat-ekspedisiya əməliyyatları, istehsalçı və satış qiymətləri, marketinq xidmətləri və s. yaradılmalı və ya mövcud sistem təkmilləşdirilməlidir.

Ədəbiyyat

1.Ataşov B.X. Aqrar sahədə struktur və səmərəlilik problemləri. Bakı-2017, "Kooperasiya" nəşriyyatı, 536 səh.

2. Azərbaycanın statistik göstəriciləri – 2019, Rəsmi nəşr, statistik məcmuə, Bakı -2019.

3. Azərbaycanda ticarət (Statistik göstəriciləri) – 2019 Bakı – 2019, 78 səh.

4.Azərbaycanın ərzaq balansları- 2019 (Statistik məcmuə) Bakı-2019, 92 səh.

5."Aqrar Tədarük Təchizat" ASC. Bulleten. B-2019.

6.Gərayev V.V.Aqrar sahənin inkişafı və idarə edilməsi. Bakı-2016, "Kooperasiya" nəşriyyatı.

7.Xəlilov H.A. Milli ərzaq təhlükəsizliyi: bazar transformasiyaları və iqtisadi qloballaşma amilləri. Bakı, "Adiloğlu nəşriyyatı" 2001., 176 səh.

8. İbrahimov İ.H. Aqrar sahənin iqtisadiyyatı. (monoqrafiya).Bakı-2016., 655 səh.

9.Kənd təsərrüfatı müəssisələri və fərdi sahibkarlıq təsərrüfatlarının əsas iqtisadi göstəriciləri. (Statistik məcmu). B-2019,

10.Quliyev E.A. Qlobal ərzaq təhlükəsizliyi: reallıqlar, çağırışlar və perspektivlər. Kooperasiya nəşriyyatı, Bakı-2018, Kooperasiya nəşriyyatı, 480 səh.

11.Киреенко Н.В. Системы сбыта продукции сельского хозяйства и перерабатающая отраслей: зарубежных опыт. Инс-т системных исследований в АПК НАН Беларуси.

© *AMEA İqtisadiyyat İnstitutu*
© *www.economics.com.az*

Айтен Акиф кызы Шукюрова

Совершенствование экономических условий реализации аграрной продукции

Резюме

В статье рассмотрен выбор каналов распределение и возможности совершенствование ее экономических условий в система реализации сельскохозяйственной продукции, анализировано и научно обоснованы наибольее расширенные рациональные, распространные каналов реализации, определены пути совершенствования этого система сбыта и предложено некоторые соответствующию рекомендации.

Ключивые слова: *аграрные продукции; реализация; сбыт; агробизнес; кооперации; совершенствование.*

Aytan Akif Shukurova

The improving of economic condition of realization of agrarian production

Abstract

The choosing of channels of identification and opportunities of improving of its economic condition in the system of realization of agricultural production have been researched in the article and there also have been analyzed the scientific based expanded rational, spread channels of realization and also have been defined the ways of improving of system of marketing and some corresponding recommendations have been suggested here.

Key words*: agrarian production, realization, marketing, agro business, corporation, improving.*

Elmi redaktor: i.f.d., dos. Y.Məmmədov
Daxil olub: 05.10.2020.
Çapa qəbul olunub: 13.10.2020.

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az